

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 153 (23.064)

15 avqust 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub.***

Bu məqsədlə keçirilən iclası giriş sözü ilə açan komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov hər il payız-qış mövsümünə hazırlıq işlərinin əvvəlcədən görülməsinin soyuq aylarda yarana biləcək çatışmazlıqların qabaqcadan aşkarlanaraq aradan qaldırılması məqsədi daşıdığını deyib.

Vurğulanıb ki, avqust ayının 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Dövlət Gömrük Komitəsinə Fövqəladə Hallar Nazirliyi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə birgə standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi, bununla əlaqədar istehlakçıların və sahibkarların əvvəlcədən məlumatlandırılması ilə bağlı tapşırıq verilib.

Komitə sədri qeyd edib ki, qanunvericiliyə əsasən elektrik və qazla işləyən qızdırıcı cihazların muxtar respublikaya idxalına malın üzərində istifadə qaydalarına dair Azərbaycan dilində təlimat və standartlara uyğunluqla bağlı xarici sertifikat tələb olunmaqla, həmçinin standartlara uyğunluğu yoxlanılmaqla icazə verilir.

Tədbirdə çıxış edən komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli müşavirədə verilmiş tapşırıqların icrasının təmin olunması ilə əlaqədar görüləcək işlərdən danışaraq vurğulayıb ki, aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış tədbirlər planına əsasən standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının satışının qarşısının alınması və gətirilmə yollarının müəyyən edilməsi məqsədilə reydlərin təşkili, istehlakçılar və sahibkarların əvvəlcədən məlumatlandırılması, kütləvi informasiya vasitələrində maarifləndirici verilişlərin və materialların hazırlanması nəzərdə tutulub.

Gömrük orqanlarında qışa hazırlıqla bağlı görüləcək işlərdən də danışan sədr müavini qeyd edib ki, qazanxanaların fəaliyyəti, elektrik enerjisi ilə təchizat, su və kanalizasiya xətlərinin vəziyyəti, avtomaşınların sazlığı, əməkdaşların qış geyim dəsti ilə təchizatı məsələləri istiqamətində görüləcək işlər vaxtında başa çatdırılmalı, payız-qış mövsümündə də gömrük nəzarəti zonalarında və inzibati binalarda xidmətin yüksək səviyyədə təşkili təmin olunmalıdır.

Sonra iclasın gündəliyində duran məsələlərlə bağlı tabeli gömrük orqanlarının rəislərinin çıxışları olub.

Tədbirə yekun vuran komitə sədri standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinin qarşısının alınması ilə bağlı maarifləndirmə işlərinə diqqətin artırılmasının vacibliyini vurğulayıb. Həmçinin qeyd olunub ki, gömrük orqanları verilən tapşırıqların icrasını daim diqqət mərkəzində saxlamalı, muxtar respublikada təhlükəsiz həyatın təmin edilməsinə öz töhfəsini verməlidir.

**Rahil TAHİRLİ**
*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru*

* * *

***Culfa Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açaraq çıxış edib.***



Bildirilib ki, ötən illərdə olduğu kimi, cari ildə də rayonda bütün sahələrdə müvafiq tədbirlər həyata keçirilir, qış aylarında problemlərin yaranmaması üçün payız-qış mövsümünə hazırlıq işlərinin vəziyyəti diqqət mərkəzində saxlanılır.

Rayonda elektrik enerjisinə və qaza olan tələbatı ödəmək üçün yeni elektrik və qaz xətlərinin çəkilişi, mövcud elektrik və qaz təsərrüfatının yenilənməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

Qeyd olunub ki, enerji təminatı sahəsində görülən işlərin nəticəsi olaraq cari ilin ötən aylarında rayonda 700 metr aşağıgərginlikli yeni elektrik verilişi, 2400 metr yeraltı kabel xətləri çəkilib, 15 min 400 kilometr yüksək və aşağıgərginlikli elektrik verilişi xətləri beton və ağac dayaqlardan istifadə edilməklə yeniləşdirilib. 10 yeni transformator yarımstansiyası təmir edilib, 4 qapalıtipli yeni şit quraşdırılıb.

Diqqətə çatdırılıb ki, əhalinin təbii qazla təmini istiqamətində görülən işlər nəticəsində korroziyaya uğrayan 1869 paqonometr uzunluğunda dəmir boru yenisi ilə əvəzlənib, texniki səbəbdən sıradan çıxmış 39 ədəd qaz sayğacı yeniləri ilə dəyişdirilib, 640 paqonometr qaz xətti çəkilib, qaz sayğaclarına müdaxilənin qarşısının alınması üçün 5409 abonent qutusu quraşdırılıb.

Rayonda dayanıqlı rabitənin təmin olunması üçün 41 ədəd rabitə dirəyi, 2420 metr müxtəlif tutumlu kabellərdən istifadə edilməklə yeniləşdirmə işləri aparılıb.

Vurğulanıb ki, əhalinin içməli suya olan tələbatının ildən-ilə yaxşılaşması istiqamətində də müəyyən işlər görülür. Bu gün Culfa şəhəri ilə yanaşı, kəndlər də fasiləsiz içməli su ilə təmin edilib. Qış aylarında qarşıya çıxa biləcək problemlərin aradan qaldırılması üçün mövsümə hazırlıq işlərinə diqqət daha da artırılmalıdır.

Şükür Babayev qarşıda duran vəzifələrdən danışarkən deyib ki, rayon Elektrik Şəbəkəsi payız-qış aylarında elektrik enerjisinin verilməsində fasiləsizliyi təmin etmək üçün mövcud infrastrukturun yenilənməsini davam etdirməli, istismar üçün yararsız olan avadanlıqların, çatlamış şüşə izolyasiyaların, elektrik dirəklərinin və xətlərin vaxtında müəyyən edilərək dəyişdirilməsini, transformator və yarımstansiyaların texniki baxışdan keçirilməsini oktyabrın 20-dək başa çatdırmalıdır.

Qaz İstismar İdarəsi qaz təchizatı sistemində texniki baxışı yekunlaşdırmalı, qaz xətlərindəki və qazpaylayıcı qurğulardakı mövcud nasazlıqların aradan qaldırılması, qaz keçidlərinə nəzarət olunması və xətlərin korroziyadan qorunması üçün tədbirlər görməlidir.

Qeyd edilib ki, Kommunal Müəssisələri Kombinatı və Culfa Şəhər Mənzil İstismar Sahəsi bütün qazanxanaların qış mövsümünə hazırlıq işlərini başa çatdırmalıdır. Qazanxanalara işçi hazırlığı diqqətdə saxlanmalı, işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görülməlidir.

Təhsil Şöbəsi, Mərkəzi Xəstəxana, Yanğın Təhlükəsizliyi İdarəsi, Mədəniyyət və Maliyyə şöbələrinin payız-qış mövsümünə hazırlıqla əlaqədar görəcəkləri işlərdən danışan İcra Hakimiyyətinin başçısı bildirib ki, dəmiryol nəqliyyatında hərəkətin təhlükəsizliyi üçün zəruri tədbirlər görülməlidir.

Yol Təmir-İstismar İdarəsi qış aylarında kəndlərə rahat gediş-gəlişin təmini məqsədilə yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunacaq maşın və mexanizmlərin saz vəziyyətdə saxlanması, onların ehtiyat hissələri ilə təchiz edilməsi və qum ehtiyatının yaradılması üçün tədbirlər görməlidir.

Çıxış zamanı Baytarlıq İdarəsinə heyvandarlıq, quşçuluq və arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinin qışlamaya hazırlığı ilə bağlı maarifləndirmə tədbirlərini gücləndirməsi, xəstəliklərə qarşı tələb olunan dərman vasitələri ehtiyatının yaradılması ilə də bağlı müvafiq tapşırıqlar verilib.

Sonra mövzu ətrafında çıxışlar dinlənilib.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

***Muxtar respublikamızda uzaqgörənliklə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində həyatın bütün sahələrində böyük canlanma yaranıb. Sahibkarlığın inkişafına geniş imkanlar açılması yeni-yeni iş yerlərinin yaradılmasına, əhalinin sosial rifahının günü-gündən daha da yüksəlməsinə xidmət edir. Şübhəsiz, bütün bunlar vergiödəyicilərinin sayında və büdcə daxilolmalarında olan sürətli artımda özünü açıq şəkildə göstərir. Bu baxımdan vergiödəyiciləri tərəfindən qanunvericiliklə müəyyən edilən vergilərin dövlət büdcəsinə tam və vaxtında ödənilməsinə nəzarət edilməsi vergi orqanlarının qarşısında böyük məsuliyyət qoyur.***

## Vergilər sahəsinə artan nəzarət öz bəhrəsini verir



Son illərdə paytaxt Naxçıvan şəhərində vergilər sahəsində irəliləyişlərə nail olmaq üçün bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib. Ticarət obyektlərində nəzarət-kassa aparatlarının quraşdırılması, POS-terminalların sayının ilbəil artırılması və istifadəsinin təmini, elektron qaimə-fakturaların və asan imzanın tətbiqi vergidənyayınma hallarının qarşısının alınmasına, ödəniş məbləğinin dəqiq aparılmasına, vaxt və maddi itkilərin aradan qaldırılmasına yol açıb. Artıq bütün görülən tədbirlər öz bəhrələrini verməkdədir. Bunu cari ilin 6 ayının nəticələrində də aydın şəkildə görmək mümkündür. Belə ki, bu ilin bəhs olunan dövründə Naxçıvan Şəhər Vergilər İdarəsi tərəfindən dövlət büdcəsinə vergi daxilolmaları üzrə proqnoza 108,2 faiz əməl olunub ki, bu da nəzərdə tutulduğundan 547 min 300 manat artıq vəsait deməkdir. Hesabat dövrü ərzində 292 vergiödəyicisi qeydiyyata alınıb, onlardan 275-i fiziki, 15-i hüquqi şəxs olub. Vergiödəyicilərinə bankda hesab açmaq üçün 175 şəhadətnamə dublikat verilib.

Bu gün vergilər sahəsində ən mühüm amillərdən biri də vergi potensialının yerlərə getmədən müəyyən edilməsidir ki, bu da, öz növbəsində, keçirilən kameral vergi yoxlamalarına diqqətin daha da artırılması və səmərəliliyin yüksəldilməsi zərurətini ortaya çıxarır. Cari ildə idarə tərəfindən 13 vergiödəyicisində kameral vergi yoxlamaları aparılıb, ki, bunun da nəticəsində 6595 manat əlavə vəsait hesablanıb.

Təbii ki, əsas vergi sahibkarlıq subyektlərinin, eləcə də iri şirkətlərin payına düşür. Mağazalarda, ictimai iaşə obyektlərində və digər müəssisələrdə bu məqsədlə nəzarət-kassa aparatları quraşdırılıb və istifadəsi təmin edilib. Ümumilikdə, bu günədək 938 obyektdən 933-də nəzarət-kassa aparatı quraşdırılıb, 5 obyektdə isə yaxın vaxtlarda quraşdırılması nəzərdə tutulur. Xatırlatmaq yerinə düşər ki, əvvəllər bu sahə ilə bağlı xeyli sayda nöqsanlar var idi. Ticarət obyektində ya nəzarət-kassa aparatı olmur, ya da satıcılar bilərəkdən onu ortaya çıxarmaq istəmirdilər. Ancaq son illərdə istər yüksək dövlət orqanları, istərsə də tabeli qurumlar tərəfindən bu halların aradan qaldırılması istiqamətində bir sıra işlər görülüb. Aparılan tədbirlərin nəticəsidir ki, indi hər bir vergiödəyicisi öz üzərinə düşən məsuliyyəti yaxşı dərk edir, vergilər də vaxtlı-vaxtında dövlət büdcəsinə daxil olunur.

Nağdsız ödəmələrin səviyyəsinin artırılması və nağd əməliyyatların minimuma endirilməsi vergi orqanının qarşısında əsas vəzifə hesab olunur. Bu istiqamətdə əsas iş POS-terminalların quraşdırılmasıdır. Ümumilikdə, indiyədək Naxçıvan şəhərində 575 POS-terminal quraşdırılıb ki, bunun da 54-ü cari ilin 6 ayının payına düşür. Həmçinin POS-terminallardan istifadə vəziyyətinin nəzarətdə saxlanılması məqsədilə mütəmadi monitorinqlər keçirilib. Nəticədə, POS-terminallar üzrə nağdsız dövriyyənin həcmi 1 milyon 677 min 398 manat olub ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 321 min manat çoxdur.

Vergitutma bazasının genişləndirilməsi, vergidənyayınma hallarının qarşısının alınması vergi orqanlarının qarşısında qoyulmuş mühüm vəzifədir. Naxçıvan Şəhər Vergilər İdarəsi tərəfindən bu sahə daim diqqət mərkəzində saxlanılır və bir sıra işlər həyata keçirilir. 2018-ci ildə bu istiqamətdə aparılan araşdırmalar, eləcə də maarifləndirmə işlərinin görülməsi nəticəsində öz əmlaklarını icarəyə verən şəxslər tərəfindən əldə etdikləri gəlirlərə görə ödəməli olduqları vergilərdə artımlara nail olunub. Belə ki, bu ilin 6 ayında 1271 ödəyici tərəfindən 36 min 396 manat icarə haqqından vergi daxil olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8042 manat artıqdır. Bundan başqa, idarə tərəfindən hesabat dövründə vergiödəyiciləri ilə 2 görüş və maarifləndirmə tədbiri keçirilib, 1222 nəfərə elektron bəyannamə xidməti göstərilib. Aparılan maarifləndirmə və nəzarət tədbirləri nəticəsində repetitor fəaliyyəti ilə məşğul olan 104 nəfər, eləcə də ayrı-ayrı fəaliyyət növləri üzrə sabit vergini ödəyən 119 şəxs qeydiyyata alınıb, vergi ödənişlərinin tam və vaxtında ödənilməsi diqqətdə saxlanılıb.

Vergi ordumuzun qüdrəti, asayiş keşikçilərinin təminatı, ümumilikdə isə əhalinin vergiyə bağlı təbəqəsinin sosial təminatı deməkdir. Ona görə də bu sahədə aidiyyəti təşkilatlarla yanaşı, hər bir vətəndaş da üzərinə düşən məsuliyyəti dərk etməli, parlaq gələcəyimiz naminə hər birimiz öz töhfəmizi verməliyik.

**✍ Nail ƏSGƏROV**

Yeniləşən kəndlərimiz

## Arpaçay vadisində müasirliyi ilə gözoxşayan yaşayış məntəqəsi

***Arpaçayın şehi ilə tumarlanan, suyu ilə səfalanan, xoş rayihəli gül-çiçəklə bəzənən bağçaları, bol nemətli bağları olan yurd yerimiz Şərur rayonunun Düdəngə kəndi. Burada həyat heç cür ritmini pozmur, hər şey öz axarı ilə davam edir. Yaz-yay aylarında bütün yaşayış məntəqələrimiz kimi, bu kənd də əsrarəngiz gözəlliklərə qərq olur. Yolunu buradan salanlar bu füsunkarlığın sehrinə düşürlər.***

Düdəngə müasir görünüşü ilə yanaşı, həm də maraqlı tarixçəsi ilə diqqəti çəkir. AMEA-nın müxbir üzvü, mərhum dilçi-alim Adil Bağırov “Naxçıvan oykonimləri” kitabında kəndin tarixi haqda maraqlı məlumatlar verib. Qeyd edib ki, 1728-ci ilə aid mənbədə iki Düdəngi kəndinin adı çəkilir. Bu kəndlərin hər birində 54 ailə yaşayırmış. Düdəngə adının mənşəyi haqda müxtəlif fikirlər səslənsə də, alim bunları ümumiləşdirərək bildirib ki, Düdəngə “Düdəngi” sözünün fonetik dəyişikliyə uğramış forması olub, iki və əmlakın altıdabir hissəsi mənalarını ifadə edir. Güman olunur ki, kəndin torpaq sahələri altı qohum ailə qrupu və ya altı tayfa (yaxud altı qardaş) arasında bölündüyündən kəndin bu hissəsinə “iki qohum ailəyə məxsus torpaq sahəsi”, “kəndin iki məhəlləsi, hissəsi” adı verilib və zaman keçdikcə bu sözlərin birləşməsindən Düdəngə adı yaranıb.

Bu kənd tarixdə iz qoymuş şəxsiyyətlər yetişdirib. Onlardan biri Əbdürrəhman bəy Fətəlibəyli Düdənginski olub. Ata-babaları məşhur Səfəvi nəslinə mənsub olan Düdənginski gənc yaşlarında orduya yollanıb, Tiflisdəki hərbi piyada məktəbini bitirib, sonra Azərbaycan diviziyasında xidmət edib. 1935-1936-cı illərdə Moskva Hərbi Akademiyasında təhsil alıb və bacarıqlı bir zabit kimi yetişib. O, 1939-cu ildə Finlandiya müharibəsində iştirak edib, döyüşlərdə göstərdiyi şücaətə görə “Qırmızı Ulduz” ordeni ilə təltif olunub. Bir müddət Leninqrad dairəsi qərargahında 6-cı şöbənin rəisi vəzifəsində çalışıb. 1940-cı ildə Sovet Ordusu hissələri Baltikyanı respublikalarını işğal etdikdən sonra Düdənginski Riqada yerləşən hərbi qərargaha göndərilib, orada almanlara əsir düşüb.

Düdənginski haqqında onu tanıyan insanların, demək olar ki, hamısının fikirləri yüksək olub. Sonralar SSRİ-nin müdafiə naziri olmuş, bir zamanlar Əbdürrəhman bəy Fətəlibəyli ilə birgə Baş qərargahın Akademiyasında oxumuş Sovet İttifaqı marşalı Andrey Qreçko yazırdı: “O, heyrətedici bir aydın ağıla və təhlil düşüncəsinə malik idi və anadangəlmə komandir idi. Hərbi taktika məsələlərində bizim heç birimiz onunla müqayisə oluna bilməzdik”. Məhz Əbdürrəhman bəy Fətəlibəyli Düdənginskinin səyi ilə İkinci Dünya müharibəsində əsir düşmüş 10 minlərlə azərbaycanlının həyatı xilas edilib. Təqdirəlayiq haldır ki, bu gün də Düdəngədə neçə-neçə hərbçi, elm xadimi, ziyalı ailələr vardır.

Bu gün muxtar respublikanın digər yaşayış məntəqələri kimi Düdəngə kəndi də əsl inkişaf dövrünü yaşayır. Son illər aparılan tikinti-quruculuq tədbirləri kəndin simasını tanınmaz dərəcədə dəyişib. İndi buraya yolu düşənlər abadlaşan, gözəlləşən yurd yerinin hüsnünə heyranlıqla tamaşa edirlər. 2010-2011-ci illər kənd sakinlərinin həyatında əlamətdar hadisələrlə yadda qalıb. Belə ki, həmin dövrdə kənddə bir sıra sosial obyektlərin açılışı olub. Müasir görünüşlü kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, yaraşıqlı məktəb binasının istifadəyə verilməsi sakinlərin böyük sevincinə səbəb olub, qurub-yaratmaq istəyini artırıb.







Naxçıvanda təhsilin inkişafına Düdəngə kənd tam orta məktəbi də töhfə verməyə çalışır. Müasir təhsil ocağı şəhid Asəf Rəhimovun adını daşıyır. 1980-ci ildən fəaliyyət göstərən təhsil müəssisəsinin binası ötən dövr ərzində bir neçə dəfə təmir-bərpa olunub, 2010-cu ildə isə müasir görkəminə qovuşub. Məktəbdə müasir təlim metodlarından geniş istifadə yeni-yeni uğurlara yol açır. Belə ki, 2017-2018-ci tədris ilində keçirilən qəbul imtahanlarında da nailiyyətlər əldə olunub. Həmin imtahanlarda iştirak edən 10 məzundan 8-i keçid balını üstələyib. Abituriyentlərdən 1-i 500-700 intervalında bal toplayıb. İmtahandan 591 bal toplayaraq müəllim və valideynlərinə böyük sevinc bəxş edən Günel Məmmədova qazandığı uğurda pedaqoji kollektivin böyük payı olduğunu dedi:

– Hər bir abituriyentin ümdə arzusu imtahanda müvəffəqiyyət qazanaraq istədiyi ixtisasa qəbul olmaqdır. Lakin bu sevinc hər kəsə nəsib olmur. Uğur qazanmaq üçün yorulmadan çalışmaq əsas şərtdir. İmtahana hazırlaşdığım dövrdə axşam gec yatıb səhər erkən oyandığım günlər çox olub. Sevinirəm ki, zəhmətim hədər getmədi. Bu işdə müəllimlərimin də əməyi böyük oldu. Atdığım hər addımda yanımda oldular, daim onlardan məsləhət aldım. Onu da deyim ki, uşaqlıqdan ən böyük arzum böyüyəndə qanun keşikçisi olub xalqımızın, dövlətimizin xidmətində dayanmaq idi. Sevinirəm ki, artıq həmin istəyimə bir addım yaxınlaşmışam. Belə ki, seçimim Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası oldu. Qazandığım uğurda payı olan hər kəsə minnətdarlığımı bildirirəm.

Kənddə milli-mənəvi dəyərlərimiz qorunur, sakinlər adət-ənənələrimizə hörmətlə yanaşırlar. Kənd məscidində İslam dininə uyğun ayinləri icra etmək üçün hər cür şərait vardır. Bundan başqa, kənddə mərasim zalının tikilərək istifadəyə verilməsi sakinlərin yas mərasimlərini rahat şəkildə keçirmələrinə imkan verib.

Düdəngədə müəssisə qurub, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar da az deyil. Həmin sahibkarlardan Ədalət Piriyev deyir ki, 4 il bundan əvvəl lavaş sexi yaradıb, işə başlayıb. İlk vaxtlar bir az çətinliklə qarşılaşsa da, sonradan işləri yolunda gedib. İndi bu müəssisə sayəsində həm kənd sakinlərinin çörəyə olan tələbatını ödəyir, həm də muxtar respublika iqtisadiyyatına töhfə verməyə çalışır.

Bərəkətli torpaqlar və Arpaçay kimi əlverişli su mənbəyi kənddə məhsul bolluğuna səbəb olub. Hər il torpaq oyanan dövrdə zəhmətkeş kənd camaatı sahələrə üz tutur, yorulmaq bilmədən çalışır, əkib-biçir, özləri üçün xoş gün-güzəran yaradır. Təsadüfi deyil ki, hər il öncəki ilə nisbətən əkilən ərazilərin məhsuldarlığı daha da artır. Bu ilin yaz əkinləri zamanı 45 hektarda qarğıdalı, 35 hektarda kartof, 17 hektarda soğan, 7 hektarda tərəvəz, 6 hektar ərazidə sarımsaq, 2,4 hektarda arpa,1 hektarda tütün, 0,25 hektarda qarabaşaq və digər əkinlər həyata keçirilib. Ərazilərdən bol məhsulun tədarük olunması çəkilən zəhmətin hədər getmədiyini göstərir.

“Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı”nın təsdiq olunması kənddə bu sahəyə marağı artırıb. Belə ki, cari ildə Düdəngədə ilk dəfə olaraq 1 hektarlıq ərazidə tütün əkini həyata keçirilib. Təsərrüfatçı Zahid İbrahimov deyir ki, dövlətimiz tərəfindən tütün istehsalçılarına subsidiyaların verilməsi və tütün qəbulu üçün yaradılan şərait bu gəlirli sahəyə maraq göstərməsinə səbəb olub. Fermer tütün şitillərini “Cahan Tabak” Məhdud Məsuliyyətli Cəmiyyətinin Tütün Yetişdirmə Təsərrüfatından alaraq öz sahəsində əkib. Mövcud imkanlar və su bolluğu məhsuldarlıqla nəticələnib. Yaxşı məhsul əldə edən təsərrüfatçı yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” bu sahə ilə məşğul olanlara əlavə stimul verib. Düdəngədə də arıçılığa maraq xeyli artıb. Hazırda bu kənddə 6 arıçılıq təsərrüfatı fəaliyyət göstərir. “Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 mart tarixli Sərəncamı ilə arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 2018-ci il də daxil olmaqla, 5 il müddətində ildə 10 manat məbləğində subsidiya müəyyən edilməsi düdəngəli arıçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Arıçılardan İbrahim Qasımov dedi ki, bu peşə ona babasından miras qalıb. Artıq uzun illər arıçılıqla məşğul olduğu üçün işin bütün incəliklərini dərindən bilir. Onun dediklərindən:

– Ömrümün çoxunu arı saxlayıb, bal süzməklə keçirmişəm. Bu iş olmasa, mən yaşaya bilmərəm. İnanırsınız ki, işə o qədər həvəslə bağlanmışam ki yorulmaq nədir bilmirəm. Yaxşı yadımdadır, rəhmətlik babam hey deyərdi ki, bala, bu işdən bərk yapışın, arı saxlanılan evdə ruzi-bərəkət bol olar. Onun məhsulundan yedikcə canın da dərd-bəla görməz. Hədər yerə deyilməyib ki, bal min bir dərdin dərmanıdır. Onu da deyim ki, arı saxlamaq böyük zəhmət tələb etsə də, doğma yurdumuzun əsrarəngiz təbiəti işimizi xeyli asanlaşdırıb. Gül-çiçəklə bəzənən bağ-bağçalarımız, səfalı yaylaqlarımız arılar üçün böyük yem mənbəyidir. Sevindirici haldır ki, biz arıçılar üçün dövlətimiz tərəfindən də stimullaşdırıcı tədbirlər görülür. Hər il festivalların keçirilməsi həm Naxçıvan balının geniş şəkildə tanıdılmasına imkan verir, həm də biz arıçılar üçün böyük satış imkanı yaradır. Biz də çalışırıq ki, göstərilən qayğıdan lazımınca bəhrələnək, daxili bazarı yüksəkkeyfiyyətli arıçılıq məhsulları ilə təmin edək. Yaradılan imkanlara görə dövlətimizə minnətdaram.

*Düdəngə kəndinin müasir növrağı hər kəsi zəhmətsevərliyə daha da ruhlandırır. Əminliklə demək olar ki, bu kənd gələcək illərdə də muxtar respublikanın ərzaq təhlükəsizliyinə töhfə verən yaşayış məntəqələri sırasında olacaq.*

**Nail ƏSGƏROV**

---

*İstehsal müəssisələri*

## *“Prestij Naxçıvan Pivəsi”* Məhdud Məsuliyyətli Cəmiyyəti uğurlu fəaliyyətini davam etdirir

Müasir dövrdə muxtar respublika iqtisadiyyatında sənayenin, o cümlədən emal sənayesinin inkişafına mühüm diqqət yetirilir. Belə sənaye müəssisələri yüksək texnologiyanın tətbiqinə əsaslanmaqla məşğulluq məsələlərinin həllinə də mühüm töhfə verir. Bu baxımdan 2006-cı ildən fəaliyyət göstərən “Prestij Naxçıvan Pivəsi” Məhdud Məsuliyyətli Cəmiyyətində 60-a yaxın iş yerinin yaradılması diqqəti cəlb edir. Keyfiyyət prinsiplərini ön planda tutaraq istehlakçı məmnuniyyətinə nail olmağı qarşıya məqsəd qoyan müəssisənin qısa müddətdə uğur qazanmasının səbəblərindən danışan sahibkar Seyfəddin Rəhimov onlara göstərilən dövlət qayğısının bu sahədə böyük rolu olduğunu vurğuladı. Belə ki, indiyə qədər müəssisəyə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun xətti ilə müxtəlif dövrlərdə, ümumilikdə, 1 milyon 835 min manat güzəştli kredit dəstəyi verilib. Göstərilən diqqət və qayğı isə bəhrəsiz qalmayıb. Təkcə ötən il müəssisədə 672 min manatdan artıq məhsul istehsal olunub. Cari ildə də məhsuldar fəaliyyəti davam etdirən müəssisədə ilk altı ayda 189,6 min dekalitrə yaxın həcmdə məhsul istehsalına nail olunub. İstehsal olunan məhsullara tələbat da vardır. Hazırda müəssisədə açıq və tünd olmaqla, 2 növdə və 5 çeşiddə istehsal olunan pivə muxtar respublikamızın bütün ticarət və iaşə məntəqələrinə satışa göndərilir. Xammalı Belçika, Çexiya, Slovakiya və Almaniyadan gətirilən Naxçıvan pivəsi Avropa mənşəli texnologiya vasitəsilə yerli mütəxəssislərin resepti əsasında hazırlanır ki, bu da alıcılar, xüsusən muxtar respublikamıza səyahət edən turistlər tərəfindən həvəslə alınır.



Pivə istehsalı ilə yanaşı, müəssisədə müalicəvi əhəmiyyətli “Darıdağ” mineral suyunun qablaşdırılması da həyata keçirilir ki, bu da Naxçıvanımızın mineral sərvətlərindən daha səmərəli istifadə olunmasına mühüm töhfə deməkdir. Belə ki, “Darıdağ” suyu həm təbii mineral süfrə suyu, həm də müalicəvi su kimi xüsusi əhəmiyyətə malikdir. Culfa rayonunun Gülüstan kəndində yerləşən mineral sular sexində “Darıdağ” təbii mineral müalicəvi süfrə suyunun qablaşdırılması işinin genişləndirilməsi də “Prestij Naxçıvan Pivəsi” MMC-nin uğurlarındandır. Cari ilin ilk altı ayında müəssisədə 4,9 min dekalitrə yaxın “Darıdağ” suyu qablaşdırılıb.

Müəssisənin biznesdə əldə etdiyi uğurlar, ümumilikdə, muxtar respublikamızın iqtisadiyyatına töhfədir. 2014-cü ildə biznesdə uğur mükafatı almış “Prestij Naxçıvan Pivəsi” MMC-nin fəaliyyətinə verilmiş ən böyük qiymət isə müəssisə sahibkarı Seyfəddin Rəhimovun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 24 may tarixdə imzaladığı Sərəncamla “Tərəqqi” medalı ilə təltif olunmasıdır. Sahibkar yüksək dövlət mükafatına görə dövlətimizə bir daha minnətdarlıq edərək muxtar respublikamızın sosial-iqtisadi inkişafı naminə daha səylə çalışacaqlarına əminliyini bildirdi.

**Əli CABBAROV**

## Oxunması zəruri olan kitablar

# Müdrik nəsihət, unudulmaz tövsiyə

*"Oxunması zəruri olan kitablar haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı cəmiyyətimizin qədirbilən ziyalıları tərəfindən yüksək qiymətləndirildi. O ziyalılar ki siyahıya daxil edilən kitabların hər birini mütaliə etdikləri, mahiyyətinin nədən ibarət olduğunu bildikləri üçün gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edəcək bu tarixi sənədə dəyər verməyi bacarırlar. Nəzərə alsaq ki, zaman-zaman müəllim özünün yararlandığı sanballı bir əsəri oxumağı şagirdinə nəsihət, ata yaxşı bir kitabı mütaliə etməyi övladına tövsiyə etdiyi, iki dost bir-birinə hansısa dastanı, romanı oxumağı məsləhət bildiyi kimi, oxunması zəruri kitablar da gənc nəslə bir müəllim sevgisi, ata məhəbbəti, nəsihət, tövsiyə və məsləhətdir. Bu həm də bir qayğıdır – blokadanın ilk illərindən bəri muxtar respublikanın ağır yükünü çiyinlərinə götürən və o çətin günləri yaşayan biz naxçıvanlılara inkişafın zirvəsində dayanan bugünkü Naxçıvanımızı bəxş edən ictimai xadimin – Ali Məclis Sədri cənab Vasif Talıbovun qayğısı. Tarixə bir nəzər salaq.*

### *Blokada*

Vaxt var idi ki, Naxçıvan blokadanın ilk illərinin çətinlikləri ilə üz-üzə dayanmışdı. Tariximizin səhifələrinə həkk olunmuş, heç vaxt unudulmayacaq o günlərdə olmazın ağrı-acıları ilə qarşılaşdıq. Soyuq evlər, qıt süfrələr, saatlarla çörək növbələri, ərzaq, neft talonları üçün qaçhaqaçlar, buz kimi iş yerləri, sinif otaqları və ən dəhşətlisi – istilik sisteminin yoxluğu üzündən rütubət iyi verən kitabxanalar… Muxtar respublikamızın sərt kontinental iqliminin payızın əvvəllərindən yazın ortalarınadək yaratdığı sazaqlı-soyuqlu havalarda çoxlarımızın sevimli ünvanı olan kitabxanalarda bir dəqiqə oturub mütaliə etmək mümkün deyildi. Kitabları alıb axşamlar bütün külfətin bir otaqda bir lampanın işığını paylaşmalı olduğu evlərimizə aparırdıq: bu zəif işartıda kimi kitab oxuyur, kimi dərs hazırlayır, kimi tikiş tikir, kimi də atrafındakıları seyr edərək fikrə dalıb, xoş günlərin xəyallarını qururdu.





### *İnkişaf*

Sən demə xəyalını qurduğumuz günlər uzaqda olmasa da, uzaqda da deyilmiş. Blokadanın çətinliklərini naxçıvanlılarla birgə yaşayan və daha sonralar onlarla görüşlərinin birində ***"Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur"***, – deyən ümummilli liderimiz qaranlıq axşamlarda çıraq işığında verdiyi qərarlarla bu diyarın insanlarının işıqlı sabahlarının təməlini qoydu. Ulu öndərin muxtar respublikanın məhdud daxili imkanlarından istifadə etməsi, qonşu dövlətlərlə iş birliyi, əlaqələr yaratması Naxçıvanın iqtisadi böhrandan çıxması üçün stimul oldu. Naxçıvan, ilk növbədə, gözlərini diyarımıza dikən erməni təzavüzündən müdafiə edildi. Burada qürur mənbəyimiz olan tarixi sənədlər qəbul olundu, milli dövlətçilik ənənələri formalaşdırıldı.

1995-ci ildən isə tariximizdə yeni bir səhifə açılıb: Blokada da inkişaf. Və bu səhifəyə ötən 23 ildə həkk olunan hərtərəfli dinamik inkişaf, bütün sahələrdəki uğur, ən başlıcası isə inkişafın, tərəqqinin bütün mərhələlərində insan amilinin ön plana çəkilməsi qədim diyarımızın müasir insanlarında Naxçıvan sevgisi fenomenini yaradıb.

### *İnkişafdan pay alan kitabxanalar*

Təbii ki, bu inkişafdan tarixən elmin, biliyin beşiyi hesab edilən Naxçıvanın şəhər mərkəzlərindən tutmuş ən ucqar dağ kəndlərində yerləşən kitabxanaları da pay aldı. Başdan-başa abadlaşan şəhər, qəsəbə, kəndlərimizdə infrastruktur sahələri yaradıldı, bütün sahələr müasirləşdirildi. Rütubət iyi verən kitabxanalar üçün yeni binalar tikildi, kənd mərkəzlərində otaqlar ayrıldı.

Xatırladaq ki, o dövrdə Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərmanı ilə ölkəmizdə latın qrafikalı Azərbaycan əlifbasına keçid tamamilə təmin olunmuşdu. Bundan sonra Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşri günün ən vacib məsələlərindən biri idi. Dövlət başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatı, eləcə də lüğət və ensiklopediyalar silsiləsindən ümumi tirajı 9 milyondan çox kitab nəşr edilərək kitabxanalara göndərildi, oxucuların ixtiyarına verildi. Bu nəşrlər sayəsində gənc nəslin latın qrafikası ilə çap olunmuş bədii və elmi ədəbiyyata ehtiyacının ödənilməsi istiqamətində mühüm addım atıldı. Sonrakı sərəncamlarda isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyalarından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Bu gün muxtar respublikamızın da bütün təhsil və mədəniyyət müəssisələrinin kitabxanaları latın qrafikası ilə nəşr olunmuş kitablarla zənginləşdirilib. Təkcə Naxçıvan Dövlət Universitetində 30-dan çox dildə 200 minə yaxın fonda malik elektron kitabxana fəaliyyət göstərir. Kitabxanaların hər birində ötən ildən oxunması zəruri olan kitablardan ibarət sərgilərin açılması isə muxtar respublikada mütaliə mədəniyyətinin inkişafına hər zaman verilən dəyərin göstəricisidir.

### *Nəsihətin, tövsiyənin, məsləhətin nəticəsi*

Bir vaxtlar rütubətdən, soyuqdan istifadə edə bilmədiyimiz kitabxanalar, dərdsərimizin çoxluğundan, elektrik enerjisinin yoxluğundan oxuya bilmədiyimiz kitablar "həsrətlə yolumuzu gözləyirdi". Bu problem aradan qaldırılan vaxt yeni texnologiyaların həyatımıza daxil olması və etiraf edək ki, sosial şəbəkələrə marağın artması çoxlarının ayağını kitabxanalardan kəsmişdi. Bu, bütün ölkəmizdə illərdir ki, həlli yolları axtarılan məsələlərdəndir.

Çox qürurverici haldır ki, hər kəs tərəfindən rəğbətlə qarşılanan "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam bu gün muxtar respublika kitabxanalarına oxucuların kütləvi şəkildə axınına səbəb olub. Bu sərəncamla, xüsusilə məktəb kitabxanalarının fəaliyyəti daha da genişləndirilib, məktəblilərin isə mütaliəyə marağı artıb. Əksər şagirdlər siyahıya daxil edilmiş kitabların adlarını əzbər bilir, onların çoxunu oxuyub və məktəblərdə keçirilən kitab müzakirələrinin iştirakçısı olublar. Qarşılaşdığımız maraqlı bir fakt da var: Baxmayaraq ki, sərəncam gənc nəslin dünyagörüşünün, vətənpərvərliyinin formalaşması üçün verilib, ictimaiyyət nümayəndələri, kitabxanalarla əlaqəsi olanlar etiraf edirlər ki, bu kitablarla maraqlanan, oxumaq istəyənlər tək gənc nəsil deyil, onları mütaliə etmək istəyində olan orta, ahıl yaşlı insanların da sayı çoxdur. Bu marağın, istəyin isə yeganə bir səbəbi var: Dəyərli insanların dəyərli məsləhətləri insana yalnız fayda verə bilər.

### *Oxunması zəruri olan kitablar*

"Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti" tariximizin bütün dövrlərinin təhlil edilməsi baxımından hər bir azərbaycanlı, xüsusilə də gənc nəsillər üçün çox əhəmiyyətlidir. Eyni zamanda müstəqil ölkəmizin intibahına çağıran bu kitab gənclərin gələcək tədqiqatlarında onların yollarına işıq salacaq dəyərli vasitədir.



Dədə Qorqud müdrikliyi, Nizami Gəncəvi nəsihəti, Cəlil Məmmədquluzadə təmkini, Nəsirəddin Tusi əxlaqı, Şəhriyarın Vətən harayı, Seyid Əzim Şirvaninin bitkilərin və heyvanların dili ilə insanlığa, haqqa, ədalətə çağırışı, Sədi Şirazinin – bir dünya səyyahının "Gülüstan"ının əvəzsiz nəsihətlər məcmusu, Məhəmməd Peyğəmbərin və onun yaxınlarının islami dəyərlərə dəvəti insana, əlbəttə, ən gözəl keyfiyyətləri aşılaya bilər. Rəşidəddin Fəzlullahın oğuzların tarix səhnəsində kimliklərini sübut etməsi, Hüseyn Cavidin Azərlə XX əsrin real mənzərəsini yaratması, Məmməd Səid Ordubadinin böyük qələbələrə nail olmaq üçün igid xalq qəhrəmanı Fəxrəddinin qılıncı ilə dahi Nizaminin qələmini birləşdirməsi hər bir azərbaycanlını öz tarixinin səhifələrini açıb onu öyrənməyə səsləyir.

Dünyagörüşün formalaşmasında milliliklə yanaşı, digər xalqların da tarix, mədəniyyət və ədəbiyyatlarının öyrənilməsi böyük rol oynayır. Oxunması zəruri olan kitablar arasında dəyərli xarici ədəbiyyat nümunələri də var. Teodor Drayzerin rəssamlıq sənəti ilə kifayətlənə bilməyib, özünə "dollar hakimiyyəti" qurmaq istəyən və sonda bunun acısını yaşayan dahisi – Yucin Vitlası, Cek Londonun sonadək yaşamaq uğrunda mübarizə aparan qəhrəmanı, Nikolo Makiavellinin dövlətin idarə edilməsini göstərən "Hökmdar"ının iddiaları, Gi de Mopassanın Gombulunun həyatda hansı mövqedə dayanmasından asılı olmayaraq tükənməz vətənpərvərliyi, Nikolay Ostrovskinin Pavel Korçaginin amansız xəstəliyə baxmayaraq böyük həyat eşqi ilə, yazıb-yaratması, ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun övladını etibar etdiyi müəllimə onun tərbiyəsi, hərtərəfli yetişməsi üçün dəyərli tövsiyələri bu kitabları oxuyan hər kəsə, təbii ki, yaxşıları əxz etməyi öyrədər.

Bir sözlə, oxunması zəruri olan kitablar siyahısına o qədər başəri, dəyərli əsərlər daxil edilib ki, məhz bu kitablarla müdrik bir insan kimi yetişmək, onları oxuyub təhlil etməklə hərtərəfli dünyagörüşə yiyələnmək olar. Və bu kitabların yaratdığı maraq, mütaliəyə bağlılıq hissi siyahıya zaman-zaman əlavə ediləcək digər kitabların da oxunmasına yol açacaq.

### *Son söz*

Ötən il oktyabrın 18-də Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müdriklər dövlətlərin qüdrətini onun ordusunun qüdrəti ilə ölçürdülər. İtalyan filosofu və mütəfəkkiri Nikolo Makiavelli özünün məşhur "Hökmdar" əsərində göstərirdi ki, "bütün dövlətlərdə hakimiyyətin əsasını yaxşı qanunlar və yaxşı ordu təşkil edir"***.

Bəli, bu gün muxtar respublikamızı qoruyan əzəmətli ordumuz varsa, burada illərdir ki, yaxşı qanunlar qəbul edilirsə, Naxçıvan ölkəmizin yeniliklər məkanı adını qazanıbsa, təbii ki, əsl ziyalıların qiymətləndirdiyi oxunması zəruri olan kitablar da həmin yeniliklərdən biridir.

✍ **Mətanət MƏMMƏDOVA**

---

## Qarşıya qoyulan vəzifələr icra olunur

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi iyul ayında öz fəaliyyətini komitənin iş planına uyğun qurmuş, bu dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı ötən dövrdə bu kateqoriyadan olan uşaqların valideynləri ilə maarifləndirici söhbətlər aparılmış, onlar haqqında məlumat bazası yaradılmış, 2 uşaq Naxçıvan şəhərindəki 10 nömrəli uşaq bağçasına, 1 uşaq isə Naxçıvan Uşaq Bərpa Mərkəzinə yönləndirilmişdir.

"Naxçıvan Muxtar Respublikasının Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının 2018-ci il üçün İş Planı"nın icrası ilə əlaqədar "Naxçıvan" Universitetində "İslam dini və ailə dəyərləri" mövzusunda konfrans keçirilmişdir. Həmçinin Gənclər Mərkəzində "İnformasiya cəmiyyətində ailə, qadın və uşaq məsələləri: reallıqlar və perspektivlər" mövzusunda tədbir təşkil olunmuş, "Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda keçirilmiş III muxtar respublika yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılmışdır.

"Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"na uyğun olaraq yaradılmış elektron məlumat bankına 415 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

---

## Mədəni-kütləvi tədbirlər davam etdirilir

İyul ayında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən əlamətdar və tarixi günlərlə bağlı tədbirlər keçirilmiş, şənbə konsertləri davam etdirilmiş, muzeylərin fəaliyyəti diqqətdə saxlanılmış, muzey əməkdaşları üçün seminar-treninqlər və təcrübə məşğələləri təşkil olunmuş, Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılmasının 20 illiyi qeyd edilmiş, Naxçıvan Dövlət Xalça Muzeyində Günnüt xalçalarının təqdimatı olmuşdur. Hesabat dövründə muzeyləri 15 mindən çoxu əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 47 min tamaşaçı ziyarət etmişdir. Bu dövrdə muzeylərə 243 yeni eksponat daxil olmuşdur.

Muxtar respublika kitabxanalarında 62 tədbir keçirilmiş, 35 sərgi açılmışdır. Kitabxanalara yeni oxucu gəlişi 195, müraciət edən oxucuların sayı isə 103 min 40 nəfər olmuşdur.

Naxçıvan Dövlət Musiqili Dram Teatrında 135-ci teatr mövsümünün başa çatması ilə bağlı tədbir keçirilmiş, Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanının motivləri əsasında hazırlanmış tamaşa teatrsevərlərə təqdim olunmuşdur. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı Ağbulaq İstirahət Mərkəzində "Qoğalın sərgüzəşti" və "Qırmızı papaq" tamaşalarını məktəblilərə göstərmiş, Ordubad Xalq Teatrı Əbdürrəhim bəy Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" tamaşasını nümayiş etdirmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikasında əkinçilik çox qədim tarixə malikdir. I Kültəpə, Uçan ağıl, Ovçular təpəsi, Zirincli yaşayış yerləri və digər qədim ərazilərdə aparılan arxeoloji tədqiqatlar Neolit, Eneolit dövrlərində Naxçıvanda əkinçilik mədəniyyətinin mövcudluğunu, eləcə də dənüyütmə ilə məşğul olunduğunu təsdiq edir. Abidələrin əksəriyyətində çaxmaqdaşından düzəldilmiş oraq dişlərinin aşkarlanması taxıl əkinçiliyinin qədim dövrdə formalaşdığını müəyyənləşdirirsə, ən yüksək dağ qurşaqlarında aşkarlanan dən döyən daşlar heyvandarlığın inkişafını, yaylağa köçənlərin özləri ilə hazır un yox, buğda aparıb həmin daşlar vasitəsilə onu un şəklinə salaraq istifadə etdiklərini göstərir. Dən üyütmək üçün su dəyirmanlarının meydana gəlməsi digər ibtidai vasitələrdən istifadəyə son qoyub. Bəs əsrlər boyu xalqımızın məişətinin ayrılmaz hissəsi kimi tarixə düşmüş, bugünkü nəsillərin çoxunun görmədiyi, haqqında təsəvvürü belə, olmayan su dəyirmanları insanların həyatında nə kimi rol oynayıb?*

*Etnoqrafiyamız*

## Naxçıvanın zəngin tarixinin bir parçası – *su dəyirmanları*

Tarixdən məlumdur ki, buğdanı un etmək üçün ilk dəfə dibək daşlarından istifadə olunub. Lakin dibəkdə taxılın döyülməsi çox ağır, fiziki qüvvə tələb edən bir iş, məhsuldarlığı isə aşağı idi. Zamanla dibəkləri daha səmərəli olan dən üyüdən daşlar, daş sürtgəcləri əvəz etdi. Hamar daş üzərinə tökülən taxıl sürtülərək üyüdülürdü. Arxeoloji tədqiqatlar zamanı Babək rayonu ərazisində antik dövrə aid Meydantəpə abidəsində dəyirman kimi istifadə edilmiş böyük sal daş, eyni vaxtda işlədilən bir neçə üst daş aşkar edilib. Alt daşlarına bəzən qəbiristanlıqlarda başdaşı kimi də rast gəlinir. Sirab kəndinin Bəydilli, Didivar kəndlərinin qəbiristanlıqlarında bu cür başdaşları vardır.

Zaman keçdikcə dən daşlarını daha təkmil olan kirkirələr əvəz etdi. Bu daşlardan Neolit dövründən istifadə edildiyi məlum olsa da, kirkirənin bəzi mənbələrdə 2600 il əvvəl, bəzi mənbələrdə hələ Tunc dövründə – 4000-5000 il bundan əvvəl meydana gəldiyi qeyd olunur. Gün ərzində sadə dən daşında 5-6 kiloqram dən üyütmək mümkün olurdusa, dairəvi dən daşlarında 15-16, kirkirədə isə 20-30 kiloqram dən üyütmək mümkün olurdu. Kirkirənin alt və üst daşı dairəvidir, 40-50 santimetr diametrində (kiçikləri də olur), 7-10 santimetr qalınlığında olur. Alt daş mərkəz hissədən deşilir, 4-5 santimetr diametrində bu deşiyə 10-12 santimetr uzunluqda ağac salınır. Xalq arasındakı bu tapmaca da məhz kirkirə ilə bağlıdır:

*O nədir ki, göydən yerə sallanır,*
*O nədir ki, göbəyindən nallanır.*
*O nədir ki, hər nə versən aldanır?*

Alt daşla eyni diametrdə olan üst daşda iki ədəd deşik açılır. Ortada olan deşik 7-8 santimetr diametr ölçüdə olur, alt daşın ortasına salınan ağaca keçirilir. Həmin deşiyin diametri ağacdan bir qədər böyük düzəldilir ki, bu boşluqdan ovucla üyüdüləcək arpa, buğda tökülə bilsin. Üst daşın kənarında açılan deşiyə dəstək salınır ki, fırlatmaq asan olsun.

Adi əl kirkirələrinin quruluşunda sonralar heyvanlarla, daha sonra su, külək, elektriklə hərəkətə gətirilən dəyirmanlar yaradıldı. Təbii ki, daha böyük həcmdə taxılı üyütmək üçün ən yaxşı vasitə su dəyirmanları idi. Bu dəyirmanlar, adətən, sulu çeşmələrin yatağından bir qədər kənarda, sel tutmayan yerlərdə tikilər, indiki metal, azbest boru olmayan əyyamlarda ox kimi düz söyüd, qələmə ağacları kəsilər, qol-budağı təmizlənib 10-12 metr uzunluğunda nov düzəldilərdi. Əvvəlcə kərki ilə ağacın bir üzü başabaş iki qarış enində yonulardı. İçərisi dülgər əli ilə iskənədən keçirilib hamarlanardı. Sonra ağac qolçaları ilə novun üzü bərkidilərdi. Dəyirmanın işləməsində novun uzunluğu əsas şərtdir.

Folklor və etnoqrafiyamızda dəyirmanla bağlı çoxlu nəğmələr, atalar sözləri mövcuddur. "Koroğlu" dastanında dəyirmanla bağlı bir sıra məqamlara rast gəlirik. Keçəl Həmzə dəyirmançını aldadır, o da qaçıb girir dəyirmanın unluğuna. Keçəl Həmzə tərəfindən növbəti dəfə aldadıldıqdan sonra Koroğlu deyir:

*Qırat əldən getdi barı*
*Canda qaldı intizarı.*
*Üyüd arpa, buğda, darı,*
*Al şahadın sən, Koroğlu!*

Dəyirmanda üyüdülən taxıla görə alınan rüsum "şahad" adlanırdı. Su dəyirmanlarında daşların üzərinə çəpəki, enli və qalın taxta vurulardı. Taxtanın və daşın ətrafındakı örtüyün üzərinə qonan un tozu isə zəhməthaqqı olaraq dəyirmançıya çatardı.



Buna "ard unu" (ardı, arxası) deyərdilər. "Dəyirmançı qızın verdi, dalınca da ard unu" məsəli də buradan yaranıb. Su dəyirmanında un növlərə ayrılmadığı üçün kəpəkli olur. Ard unu isə un tozu olduğu üçün indiki əla növ un keyfiyyətində idi. Xalq arasında "Dəyirman öz bildiyin eləyər, çax-çax baş ağrıdar" zərb-məsəli də səbəbsiz yaranmayıb. Dənliyin şırranına çəpəki olaraq bir ağac bağlanar, ağacın digər ucu yaxında bərkidilmiş deşiyə keçirilərdi ki, hərəkət edə bilsin. Bu qol ağacına perpendikulyar birləşən digər ağacın ucu dəyirmanın üst daşının üzərinə qoyulardı. Dəyirman işlədikcə çax-çax aramla qalxıb-düşər, şırranı silkələyərdi ki, dənliyə dən tökülsün. Bu proses də səsli-küylü olardı.

Dəyirmanlarla bağlı geniş yazılı məlumata 1727-ci il "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə rast gəlinir. Adıçəkilən mənbədə göstərilir ki, həmin dövrdə Naxçıvan sancağı 14 nahiyədən ibarət olub və ərazisində 315 yaşayış məntəqəsi yerləşib. Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrinin bir çoxu Naxçıvan torpaqları idi. İndiki Ararat rayonunun cənub-şərq hissəsi, Yexeqnadzor rayonu bütövlükdə, Cermuk rayonunun tam yarısı, Sisiyan rayonunun böyük bir hissəsi, Mehri də daxil olmaqla, Naxçıvan ərazisinə aid idi. Müfəssəl dəftərdə natura şəklində qeyd edilən vergini nəzərə alaraq Naxçıvan ərazisindən 642 ton buğda, 574,3 ton arpa və 20 ton darı yığıldığı bildirilir. Həmin mənbəyə istinadən Şərur rayonunu çıxmaq şərtilə (Dərələyəz nahiyəsinə tabe olan Axura-Yaycı da daxil) Naxçıvanın müasir sərhədləri çərçivəsində istehsal olunan taxıl məhsullarını hesablasaq, görərik ki, həmin vaxt 458 min 500 kiloqram buğda, 383 min 500 kiloqram arpa, 94 min kiloqram darı, 91 min kiloqram kərdiyar və 85 min 250 kiloqram pərinc istehsal olunub.

O dövrdə Naxçıvanın indiki sərhədləri daxilində 42 yaşayış olmayan kənd və məzrə mövcud idi. Həmin kəndlərdə əkin aparan adamlardan orta hesabla 3 min axça vergi alınıb. Bu kəndlərdə taxıl vergisi natura şəklində göstərilmədiyi üçün dəftərdəki hesaba salınmayıb. Yaşayış olan və təxminən, 3 min axça vergi verən kəndlərdə orta hesabla 1200 kiloqram taxıl vergisi hesablanıb. Yaşayış olmayan 42 yaşayış məskənindən də, təxminən, 48 min kiloqram taxıl götürüldüyünü nəzərə alsaq, qeyd edilən 1112 ton taxıl üzərinə 48 ton da gəldikdə 1160 ton taxıl istehsal olunub. Hesablamalara görə, həmin dövrdə indiki Naxçıvan ərazisində, təxminən, 25 min 300 nəfər əhali yaşayıb. İnsanların hasilə gətirdikləri buğda o dövrdə mövcud olan su dəyirmanlarında üyüdülüb.

Tarixi mənbələrdə su dəyirmanlarının ilk orta əsrlərdən Azərbaycanda yayıldığı göstərilir. 1727-ci ilə aid sənəddə ərazidə mövcud olan dəyirmanların işləyən və işləməyənlərinin siyahısı, həmçinin onlardan toplanan vergi qeyd edilib. Siyahıya görə, Naxçıvan ərazisində 38 dəyirman ilboyu, 106 dəyirman yarım il işləyib. 57 yararsız dəyirman olub. Yarım il işləyən dəyirmandan 30, ilboyu işləyən dəyirmanlardan isə 60 axça vergi alınırdı.

Sovet hakimiyyəti illərində tarix və etnoqrafiyamıza bəslənilən laqeyd münasibət su dəyirmanlarından da yan keçmədi. Belə ki, bu dövrdə onların hamısının fəaliyyəti dayandırılıb, daşları isə harasa daşınıb.

Müstəqillik illərində muxtar respublikanın əksər kəndlərində vaxtilə mövcud olmuş su dəyirmanlarının fəaliyyəti bərpa edilib. Culfa rayonunun Kırna, Camaldın və Saltaq kəndlərində, ötən ilin sentyabr ayında isə Babək rayonunun Payız kəndində tarixi su dəyirmanı da yenidənqurmadan sonra istifadəyə verilib. Tarixi mirasımız olan su dəyirmanlarına göstərilən həssas münasibət, onların bərpa olunaraq yenidən sakinlərin istifadəsinə verilməsi xalqımızın məişət mədəniyyətinə, etnoqrafiyasına göstərilən diqqətin daha bir ifadəsidir.

Artıq muxtar respublikada taxıl biçini yekunlaşıb, sahələrdən bol məhsul tədarük olunub. Torpaq mülkiyyətçilərinin bir çoxu öz buğdasını fəaliyyət göstərən su dəyirmanlarında üyütməyə üstünlük verir. Babək rayonunun Payız kəndində yerləşən su dəyirmanı da onlardan biridir. Bu dəyirmanda gün ərzində 300-500 kiloqram buğda üyütmək mümkündür. Dəyirmançı Alim Babayev deyir ki, burada hasilə gələn unun çörəyi ətirli və kövrək olur. Hətta yaşlı adamlar da söyləyirlər ki, elektrik dəyirmanında üyüdülən un su dəyirmanında üyüdülən unun çörəyini əvəz edə bilmir. Dəyirmançının sözlərinə görə, ruzi və bərəkətin rəmzi sayılan su dəyirmanlarına ikinci həyat bəxş edilməsi sakinlər tərəfindən rəğbətlə qarşılanır.

**Zaleh NOVRUZOV**

*Həkim məsləhəti*

## Sinir sistemi insan orqanizminin bütün sistem və orqanlarının əlaqəli fəaliyyətini təmin edir

*Sinir sistemi insan orqanizminin bütün sistem və orqanlarının əlaqəli fəaliyyətini təmin edir. Bu sistem mərkəzi və periferik sinir sistemlərini özündə birləşdirir. Sinirlər bizim hərəkət fəallığımızı və bədənimizin bütün sahələrinin həssaslığını təmin edir. Sinir sistemi şaxələnmiş şəkildədir və hər bir alt sistemi unikaldır. Onun funksiyasının pozulması digər daxili orqan və sistemlərin fəaliyyətinə zərbə vura bilir.*

Bu barədə Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin baş həkimi, həkim-psixiatr Rəşadət Nabatovla həmsöhbət olduq. O bildirdi ki, insan enerjini beyin qan dövranı sistemindən alır. Lakin bəzi hallarda beyinin normal qan təchizatı müxtəlif səbəblərə görə pozulur və nəticədə, beyin qan dövranı çatışmazlığı xəstəlikləri inkişaf edir.

Bu xəstəlik ilk mərhələlərdə özünü tez yorulma, emosional dəyişkənlik, diqqətsizlik, yuxunun pozulması, ağrılarla büruzə verir. Tez-tez təkrarlanan baş ağrıları, başgicəllənməsi, yaddaşın pozulması, qulaqlarda küy, cingilti çox ciddi simptomlar sayılır. Vaxt keçdikcə xəstəlik daha da ağırlaşır ki, nəticədə, xəstədə ağıl zəifliyi, parkinson sindromu və digər ağır psixi pozulmalar inkişaf edə bilər. Xəstənin yaddaşı çox zəifləyir, buna görə də hətta evdən çıxarkən aza, öz qohumlarını və yaxınlarını tanımaya bilər.

Beyin qan dövranı çatışmazlığı insult kimi ağır xəstəliyin əsas səbəbi sayılır. Bu səbəbdən yuxarıda sadaladığımız ilk simptomları özünüzdə müşahidə etdikdə, dərhal nevropatoloqa müraciət edin. İlkin mərhələlərdə bu pozulmanın inkişafını dayandırmaq və hətta tam aradan qaldırmaq mümkündür. Müalicədən əlavə xəstə öz həyat tərzində müəyyən dəyişikliklər etməlidir: gecə 8-9 saat yatmalı, ağır psixi yükləmələrdən və streslərdən uzaq olmalı, işləyərkən fasilələr etməlidir. O, tez-tez açıq havada gəzməli, idmanla məşğul olmalı, siqaretdən imtina etməlidir (siqaret damarların sıxılmasına səbəb olur). Müalicədə pəhriz də böyük rol oynayır: karbohidratların, duzun və yağların qəbulunu azaltmaq lazımdır. Balıq və digər dəniz, həmçinin süd məhsulları, bitki yağları (xüsusilə zeytun, kətan, balqabaq yağı), sıyıqlar (yumru düyü, qarabaşaq), meyvə-tərəvəz qidalanmada əsas yer tutmalıdır. Qoz-fındıq, pomidor, acı şokolad, giləmeyvələr (qara qarağat, qaragilə), brokoli kələmi, yaşıl çay və təbii qəhvə beyinin fəaliyyətini yaxşılaşdırır.

Həkim bəzilərinin probleminə çevrilən baş ağrılarından, miqrendən də danışaraq qeyd etdi ki, bu xəstəlik vaxtaşırı baş ağrısı tutmaları ilə müşayiət olunur. Adətən, cinsi yetişkənlik dövründə yaranır və irsi yolla keçir. Miqrenin səbəbi sinir innervasiyasının və vaskulyamizasiyasının pozulması hesab edilir. İnsanların vaxtında həkimə müraciət etmələri və ya vaxtaşırı tibbi müayinədən keçmələri bir çox xəstəliklərin qarşısının alınmasında mühüm rol oynaya bilər.

Rəşadət Nabatov maraqlı bir məqama da toxunaraq bildirdi ki, elmi-texniki tərəqqinin insan həyatına daha çox müdaxilə etdiyi bir dövrdə hərəkətsizlik – adinamiya sindromu yaranır. Bu isə insanın fiziki passivliyinə səbəb olmaqla sağlamlığına mənfi təsir göstərir. Müşahidələrə görə, daim əqli fəaliyyətlə məşğul olan insanlarda qocalıq deminsiyası (ağıl zəifliyi) kimi ağır pozulmaya çox nadir hallarda rast gəlinir. Ona görə də daim kitab oxumalı, krossvord həll etməli və digər əqli fəaliyyət ilə məşğul olmalıyıq. İnsan düzgün qidalansa, özü üçün aktiv həyat tərzi formalaşdırsa, bir çox xəstəliklərin təkanvericisi olan stresdən də uzaq ola bilər.

Həkim onu da diqqətimizə çatdırdı ki, bütün meyvələr əsəb sistemimizi sakitləşdirir, zehnə qüvvət verir. Alma, armud, ərik və limon şərbəti əsəbləri möhkəmləndirir, zehni fəaliyyəti gücləndirir. Böhran və gərginlik hallarında portağal və naringi yemək sinirlərimizi tənzimləməyə kömək edir. Əsəbi narahatlığı olanlar üçün daha faydalısı üzüm və üzüm şirəsidir.

Müsahibim onu da vurğuladı ki, insanda 0-1 yaşlarda aktiv düşüncə, 1-3 yaşlarda əşya düşüncəsi, 3-9 yaşlarda fərdi, 9-16 yaşlarda kollektiv, 16-22 yaşlarda isə sosial düşüncə formalaşır. Bu baxımdan uşaqlarla ardıcıl məşğul olmaq, onların diqqətinin güclənməsinə çalışmaq vacibdir. Xoş rəftar, qayğıkeşlik, ədalətlilik, humanistlik uşaqlarda beyin fəaliyyətinin düzgün formalaşmasına müsbət təsir göstərir.

*Beynimiz orqanizmimizi təşkil edən bütün üzvlərin şahı, həyatın, düşünmənin, dərketmənin, yaddaşın, insan olmanın qaynağıdır. Tanrının bizə bəxş etdiyi ömür payını gözəl yaşamaq üçün orqanizmimizin idarəedicisini – beynimizi qorumalıyıq.*

**✍ Ramiyyə ƏKBƏROVA**

***İtmişdir***

Babək rayon Yarımca kənd sakini Seyidov Siyafət Miri oğlunun adına olan JN-45 inventar nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 577